


# Proaktiv diplomatiya:

## Münxen Konfransında Azərbaycanın uğurlu strateji siyasəti və regional liderliyi

*Cənubi Qafqazın lider dövləti olan Azərbaycan qlobal siyasətdə mühüm yer tutur. Ölkəmiz beynəlxalq səviyyəli layihələrin aparıcı aktorlarından biri kimi çıxış edir və strateji tərəfdaş kimi qəbul olunur. Beynəlxalq güclər Azərbaycanın regional və qlobal sabitliyə verdiyi töhfəni yüksək qiymətləndirirlər. Dövlətimiz beynəlxalq hüquq prinsiplərinə uyğun siyasət həyata keçirərək regionda sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə çalışır. Bu yanaşma Azərbaycanı bölgənin aparıcı siyasi qüvvəsinə çevirib və ölkəmizin strateji əhəmiyyətini daha da artırıb.*

Prezident İlham Əliyevin 2023-cü ilin fevralında Münxenə səfəri zamanı istirak etdiyi görüşlər Azərbaycanın diplomatik çəkisinin və qlobal proseslərdə fəal iştirakının göstəricisidir. Qlobal güclərin ölkəmizlə əməkdaşlıq qurmaq istəyi siyasi arenadakı mövqeyimizi daha da gücləndirir. Azərbaycan hər zaman olduğu kimi, yeni dövrdə də regional və beynəlxalq miqyasda strateji hədəflərinə doğru inamla irəliləyir. Qeyd edək ki, 2023-cü il fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində enerji təhlükəsizliyi ilə bağlı keçirilən dəyirmi masa dünyanın diqqətini yenidən Azərbaycana yönəltdi. Münxen Təhlükəsizlik Konfransında keçirilən iclas Azərbaycanın beynəlxalq arenadakı əhəmiyyətini bir daha nümayiş etdirdi. Avropa və Asiyanın təhlükəsizliyində mühüm rol oynayan rəsmi Bakı, eyni zamanda bu yeni reallıqların əsas müəllifidir. Prezident İlham Əliyevin konfransdakı iştirakı və səsləndirdiyi fikirlər tədbirin əsas diqqət mərkəzi oldu. Dövlətimizin strateji mövqeyi təkcə siyasi və hərbi güclə məhdudlaşmır. Ölkəmiz Avrasiya və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynamaqla yanaşı, Avropanın enerji təminatında da əsas dövlətlərdən biridir. Azərbaycanın enerji siyasəti, sabitliyə və dayanıqlı inkişafa verdiyi töhfə ölkəmizi beynəlxalq miqyasda əvəzolunmaz tərəfdaşa çevirir. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan bölgədə yeni siyasi və iqtisadi düzənin əsas formalaşdırıcı qüvvəsidir. Dünyanın diqqəti Bakının strateji addımları və qlobal proseslərdəki rolu üzərindədir.

"Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" adlı tədbirdə Prezident İlham Əliyev ölkəmizin bu sahədəki strateji mövqeyini və Avropanın yeni enerji xəritəsinin cızılmasında rolunu bir daha vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, 2022-ci ildə ölkəmiz qaz təchizatını artıraraq Avropanın enerji təhlükəsizliyinə qısamüddətli töhfə verdi. Ancaq hədəflər daha böyükdür. Gələcək illərdə bu töhfəni artırmaq və Cənub Qaz Dəhlizini genişləndirmək. Rəqəmlər isə aydın mənzərə yaradır. Məlumdur ki, ölkəmizin hədəfi 2027-ci ilə qədər TAP vasitəsilə qaz nəqlini 11 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırmaqdır. Prezident İlham Əliyev çıxışında Azərbaycanın yalnız qaz ixracatçısı kimi deyil, həm də bərpaolunan enerji mənbələri sahəsində mühüm aktora çevrildiyini diqqətə çatdırdı. Ölkəmizdə artıq "yaşıl enerji" sahəsində konkret addımlar atılıb və 25 qiqavatadək enerji istehsalı ilə bağlı mühüm sənədlər imzalanıb. Bu isə Azərbaycanın təkcə daxili ehtiyaclarını ödəməklə kifayətlənməyəcəyini, həm də Avropanın "yaşıl enerji" təchizatçılarından birinə çevriləcəyini göstərir. Bu strateji kurs təkcə Azərbaycanın milli maraqları ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinə xidmət edir. Münxendə çıxış edən digər iştirakçılar da Azərbaycanın bu sahədə etibarlı tərəfdaş olduğunu vurğuladılar və ölkəmizlə əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə etdilər. Bir daha aydın oldu ki, Azərbaycanın enerji siyasəti təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan strateji əhəmiyyət daşıyır. Ölkəmiz sabitlik, etibarlılıq və əməkdaşlıq prinsipləri əsasında Avropanın enerji xəritəsində mühüm aktor olmağa davam edəcək.

Digər tərəfdən, Münxen konfransı geosiyasi proseslərin müzakirəsi baxımından da olduqca böyük əhəmiyyət kəsb edir. Məhz 2023-cü ilin 18 fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən plenar iclasda Cənubi Qafqaz və Avrasiyanın gələcəyi, habelə, Rusiya-Ukrayna müharibəsinin hər 3 ölkəyə təsirinə və digər vacib məsələlərə toxunuldu. Münxen Təhlükəsizlik Konfransının sədri Kristof Heusgenin moderatorluq etdiyi plenar iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Şurasının sədr müavini xanım Helqa Maria Şmid də iştirak etdilər. Xüsusi vurğulanmalıdır ki, sözügedən iclas Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün mühüm platformaya çevrildi. Prezident İlham Əliyevin çıxışı zamanı Laçın dəhlizi ilə bağlı uydurma blokada iddialarına əsaslı faktlarla cavab verməsi Avropanın bu məsələni daha düzgün dərk etməsinə kömək etdi. Azərbaycanın beynəlxalq arenada qalib dövlət, ədalətin və sülhün təminatçısı kimi çıxış etməsi isə hər birimiz üçün qürurverici hadisədir.

Bu tarixi səhnənin kökləri isə ötən illərdən qaynaqlanır. 2020-ci ilin fevralında Münxen Təhlükəsizlik Konfransında Ermənistanın baş naziri Nikol Paşinyanla panel müzakirələr zamanı Prezident İlham Əliyev Qarabağ münaqişəsinin həlli yollarını açıq şəkildə dünyaya bəyan etmişdi. Lakin Ermənistan tərəfi yenə də sülh prosesini gecikdirməyə çalışdı. İşğalçı rejim status-kvonu saxlamaq niyyətində idi, lakin tarixin axarı dəyişdi. Azərbaycanın müzəffər ordusu 44 günlük Vətən müharibəsində düşmənin "məğlubedilməz" mifini yerlə bir etdi. Dövlətimiz qətiyyət və güc nümayiş etdirərək ərazi bütövlüyünü bərpa etdi və regionda yeni reallıq yaratdı. Münxendə Azərbaycan liderinin inamlı çıxışı bu reallığın beynəlxalq ictimaiyyət tərəfindən tam qəbul olunduğunu bir daha təsdiqlədi.

Münxen Təhlükəsizlik Konfransı göstərdi ki, Azərbaycan təkcə Cənubi Qafqazın aparıcı aktoru olmaqla kifayətlənmir, eyni zamanda beynəlxalq hüququn qorunması və dövlətlərin siyasi maraqlarının ədalətli çərçivədə təmin edilməsi üçün mühüm addımlar atır. Müasir beynəlxalq sistemdə hüququn aliliyi artıq ciddi sınaqlarla üzləşib, müstəqil dövlətlərin mövqeyi isə getdikcə qeyri-müəyyən bir mühitə sürüklənir. Dünya düzənində hüquq normalarının getdikcə daha çox nəzərə alınmaması, bəzi güclərin maraqlarının beynəlxalq hüquqdan üstün tutulması Azərbaycanı proaktiv siyasət yürütməyə sövq etdi. Ölkəmiz reallığı zamanında düzgün qiymətləndirərək milli maraqlarını beynəlxalq səviyyədə qorumaq üçün strateji addımlar atdı. Xalqımız tarixi ədalətin bərpasını yalnız bir dövlət siyasəti kimi deyil, milli ideya kimi qəbul etdi və bu amal ətrafında sıx birləşdi. Bu birlik və qətiyyət ölkəmizi həm regionda, həm də qlobal arenada daha da gücləndirdi.

**Nurlan ABDALOV,**
**"Respublika".**